


# Dağ rayonunda işlərin ahəngdarlığı təmin edilir

**Son illər dünyanı bürüyən qlobal böhranın Azərbaycanda təsirini azaltmaq üçün Prezident İlham Əliyev tərəfindən qabaqlayıcı tədbirlər həyata keçirilir. Belə ki, ötən dövr ərzində artıq öz nəticələrini verməkdə olan dərin iqtisadi islahatlar aparılmış, idarəetmə istiqamətində və digər sahələrdə ixracı stimullaşdırmaq və idxaldan asılılığı azaltmaq üçün ölkə Prezidenti tərəfindən bir çox önəmli qərar və sərəncamlar imzalanmışdır. İqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi və sənaye potensialının gücləndirilməsi, kənd təsərrüfatında yeni layihələrin həllini tapması sahəsində yetərli tədbirlər həyata keçirilmişdir.**



Göygöl rayonunda bütün bunlarla həmahəng sosial obyektlərin tikintisi, abadlıq-quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur.

Aqrar sahənin inkişafına yönəldilmiş Dövlət Proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün ölkə rəhbərliyi tərəfindən yaradılmış əlverişli şəraitin nəticəsi olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının traktor, kombayn, digər maşın və avadanlıqlarla, toxum, gübrə və pestisidlərlə təminatı yaxşılaşdırılmışdır.

Heyvandarlıq sahəsində yüksək göstəricilərə nail olmaq məqsədi ilə heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə dəyərinin 50%-ni ödəmək şərti ilə 103 baş cins mal-qara satılaraq cins mal-







qaranın sayı 249 başa çatdırılmışdır. Eyni zamanda 285 baş mal-qara süni yolla mayalandırılmış, 159 baş cins bala alınmışdır. Son dövrlər Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı görülən tədbirlər öz nəticəsini verir. Dövlət başçısının qarşıya qoyduğu tələblərdən biri kimi, ölkədə şəkər istehsalının artırılması məqsədi ilə şəkər çuğunduru əkin sahələri genişləndirilir. Yüksək gəlir gətirən bu sahənin rayonda inkişaf etdirilməsi üçün mövcud potensialdan istifadə edilərək fermerlərin şəkər çuğundurunun becərilməsinə marağının artırılması istiqamətində hazırda müvafiq tədbirlər həyata keçirilir.

Göygöl rayonu ekoloji cəhətdən ən saf təbiətə malik bir zonadır. Buna baxmayaraq rayonda ekoloji vəziyyəti daha da yaxşılaşdırmaq məqsədilə ağacəkmə kampaniyası davam etdirilmiş, meşə dolaylarında 33 min 370 ədəd ting, şəhər, qəsəbə və kəndlərdə, park və xiyabanlarda, yol kənarlarında 7698 ədəd müxtəlif ağaclar əkilmişdir. Şəhərin sanitar təmizliyinə xüsusi diqqət yetirilərək küçələrdən məişət tullantılarının vaxtlı-vaxtında daşınması təmin edilir. Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyinin maddi-texniki bazası gücləndirilərək məişət tullantılarının daşınması üçün 1 ədəd BEİBEN markalı maşın və 60 ədəd zibil konteynerləri alınmışdır ki, bu da görülən işlərə təkan verir.

Əhalinin rahatlığını tam təmin etmək üçün hələ yay aylarında qışa hazırlıq yetərincə aparılmışdır. Belə ki, əhalinin elektrik enerjisi təminatını və qaz təchizatını yaxşılaşdırmaq məqsədilə elektrik təsərrüfatında təmir-bərpa quraşdırma işləri aparılmış, 118 ədəd müxtəlif güc transformatoru təmir edilmiş, 14,4 km elektrik verilişi xətti və qəza vəziyyətində olan 43 ədəd elektrik dayaqları yenisi ilə əvəz olunmuşdur. Rayonun şəhər, qəsəbə və kəndlərində yeni salınmış yaşayış massivində 95 təsərrüfatı təbii qazla təmin etmək üçün 1220 p/m uzunluğunda daşıyıcı və paylayıcı qaz xətti çəkilmiş, istismarda olan müxtəlif diametrli qaz xətlərinin korroziyaya uğrayan 4017 p/m hissəsində təmir-bərpa işləri görülmüşdür. Eyni zamanda rayonun qaz təchizatını yaxşılaşdırmaq məqsədilə 119 ədəd qaz tənzimləyici şkaflar, 34 ədəd siyirtmələr əsaslı təmir edilmiş, daşıyıcı qaz xətlərinin üzərində gücü 500 $m^3$/saat olan 2 ədəd müasir tipli qaz tənzimləyici avadanlıqları quraşdırılmışdır.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə şəhərin Hummel, Vidadi, Abdulla Şaiq, Şıxəli Qurbanov küçələrində, Mollacəlilli, Çaykənd kəndləri və Hacıməlik qəsəbəsində su xətlərində təmir işləri aparılmışdır.

Poçt və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, eləcə də əhaliyə keyfiyyətli xidmət göstərilməsi diqqət mərkəzində saxlanılır. Poçt filialı 58 minə yaxın əhaliyə nümunəvi, 30-dan çox müxtəlif növ ənənəvi və qeyri-ənənəvi poçt xidməti göstərir. Rayon ərazisində əhalinin telefona və genişzolaqlı sürətli internet xidmətlərinə olan tələbatını ödəmək məqsədilə "Göygöl-1", "Qırıqlı-1" və "Köşkü" stansiyaları üzrə vətəndaşlara telefon çəkilişi işləri davam etdirilmişdir. Genişzolaqlı internet istifadəçilərinin sayı 3640 nəfərə və ya 41,7%-ə çatdırılmışdır. Rayon üzrə 45 yaşayış məntəqəsindən 37-də əhali və təşkilatlara genişzolaqlı sürətli internet xidməti göstərilir. 2016-cı ilin 9 ayı üzrə Telekommunikasiya Qovşağının gəlir planı 100,1% icra edilmişdir.

Göygöl rayonunda ümumtəhsil məktəblərinin və məktəbəqədər uşaq tərbiyə müəssisələrinin müasir üslubda tikintisi, onların maddi-texniki bazasının müasir tələblərə uyğun möhkəmləndirilməsi daim diqqət mərkəzindədir. Məhz bunun bariz nümunəsidir ki, tədrisin keyfiyyəti yüksəlmişdir. Belə ki, ali məktəblərə qəbul olan abituriyentlərin sayı əvvəlki ilə nisbətən 33 nəfər artmış, sənəd verən 390 nəfər məzundan 189-u ali məktəblərə qəbul olmuş, onlardan 42 nəfəri 500-dən, 10 nəfəri 600-dən çox, 1 nəfər isə 687 bal toplamışdır. Yüksək nəticə göstərmiş abituriyentlərlə Rayon İcra Hakimiyyətində görüş keçirilərək hədiyyələr verilmişdir.

Rayonda 41 kitabxana, 30 klub tipli müəssisə, 2 muzey, 2 musiqi məktəbi, 32 yerli əhəmiyyətli tarixi abidə vardır. 2016-cı ilin 9 ayında 1409 nüsxə kitab alınaraq kitab fondu 310736 ədədə çatdırılmış, oxucuların sayı 18818 nəfər olmuş, eyni zamanda turist axını nəzərə çarpacaq dərəcədə artmış, sayı 71 min nəfəri keçmişdir. Turistlər gəzməli və görməli yerlərdən məmnunluqla ayrılmışlar.

Səhiyyəyə ayrılan büdcə vəsaitinin ilbəil artırılması, Dövlət Proqramlarının qəbul edilməsi, səhiyyə müəssisələrində çoxsaylı tikinti işlərinin aparılması, onların yüksək səviyyədə təchizatının həyata keçirilməsinə zəmin yaratmışdır. Tam inamla demək olar ki, son illərdə dünya standartlarına uyğun inkişaf yolu tutmuş Azərbaycan səhiyyəsinin nüfuzu qat-qat artmışdır. Son üç ildə ölkə Prezidentinin Azərbaycan vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi aksiyası geniş xalq kütləsi tərəfindən böyük razılıqla qarşılanmışdır. Göygöl rayonunda da bu nəcib aksiya sözün əsl mənasında böyük mütəşəkkilliklə keçirilir. Rayonda əhali ümumi profilaktik müayinələrə cəlb olunmuş, Mərkəzi Rayon Xəstəxanası tərəfindən 38421 nəfər müayinədən keçirilmişdir. İmtiyazlı xəstələrə dərmanlar alınaraq pulsuz paylanılmış, yoluxucu xəstəliklərə qarşı 5163 nəfər peyvənd edilmişdir.

Yeniyetmə və gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsinin aşılanması, istedadlı gənclərin üzə çıxarılması və onların hərtərəfli inkişaf etdirilməsi istiqamətində 18 yerli, 35 respublika əhəmiyyətli idman tədbirləri həyata keçirilmişdir. Karate idman növü üzrə keçirilən "Baku Open" Beynəlxalq turnirdə 2 nəfər 3-cü yerə, Həndbol idman növü üzrə Şəmkir şəhərində keçirilmiş 10-cu Respublika oyunları final yarışında Göygöl rayon komandası birinci yerə, Bakı şəhərində keçirilmiş azyaşlılar arasında kikboksinq idman növü üzrə 1 nəfər ikinci yerə, 1 nəfər üçüncü yerə layiq görülmüşlər. Əhali arasında idmanın kütləviliyinə diqqət artırılmış, 3 klub, müxtəlif idman növü üzrə 292 bölmə təsis edilmiş, 3001 gənc idmana cəlb olunmuşdur. Olimpiya İdman Kompleksində 9 idman növü üzrə 12 bölmə təşkil olunmuş, 195 gənc məşqlərə cəlb edilmişdir.

Göygöl Rayon İcra Hakimiyyətində vətəndaşların qəbul edilməsinə, onların ərizə və şikayətlərinə baxılmasına həmişə xüsusi diqqət yetirilir, müraciətlər hərtərəfli araşdırılaraq haqlı tələblər öz həllini tapır. Əhalini narahat edən problemləri vətəndaşlarla birbaşa ünsiyyətdə olaraq öyrənib lazımi tədbirlər görülməsini təmin etmək məqsədilə il ərzində 35 səyyar qəbul keçirilmişdir. Keçirilmiş görüşlərdə 2414 nəfər iştirak etmiş, 211 nəfər çıxış edərək 94 müxtəlif xarakterli təklif, müraciət və şikayət söylənilmiş, yerli əhəmiyyətli sosial problemlər öz həllini tapmışdır. Tam əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına, eyni zamanda quruculuq-abadlıq işlərinin aparılmasına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq Göygöl rayonu ənənəsinə sadiq qalaraq ölkəmizin inkişaf və tərəqqisinə öz layiqli töhfəsini verəcəkdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**






